# Müəllimlərin sentyabr konfransı

## *Ümüdvar Həsənov, Kürd kənd tam orta məktəbin tarix müəllimi*



**Hörmətli konfrans iştirakçıları! Hörmətli müəllimlər!**

İnsanın şəxsiyyət kimi formalaşmasında təhsilin rolu danılmazdır.Buna görə də təhsilin səviyyəsinə, keyfiyyətinə uyğun olaraq cəmiyyət formalaşır. Dövlətin taleyi gənc nəslin düzgün tərbiyəsindən, təhsilindən asılıdır. Həqiqətən, ölkəmizdə təhsilin inkişafına böyük diqqət göstərilir.

"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz"- bu sözlər ulu öndər Heydər Əliyevə məxsusdur. Ümummilli liderimiz daim təhsilə qayğı ilə yanaşır, onun əhəmiyyətini vurğulayırdı. Bu gün ölkə başçısı cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq ulu öndərin təhsil siyasəti uğurla davam etdirilir. Cənab Prezidentin apardığı məqsədyönlü siyasət nəticəsində hazırda təhsilimizin ayrı-ayrı sahələri deyil, bütövlükdə kompleks inkişaf gözə çarpır.

Ölkə Prezidenti qeyd edir ki, "Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr sözün əsl mənasında inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktiki tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası gücləsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın".

Xüsusi qeyd etmək istərdim ki, Azərbaycan Recpublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı təhsilə aid çoxsaylı layihələrlə bağlıdır. Heydər Əliyev Fondu Azərbaycanın təhsil sistemini təkmilləşdirmək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək üçün yüzlərlə məktəb, uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikdirib, təmir etdirib, bu müəssisələr yüksək standartlar səviyyəsində təchiz olunub. Fondun təşəbbüsü ilə təkcə Azərbaycanda deyil, dünyanın bir neçə ölkəsində məktəblər yaradılıb. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində tikilən məktəblərdən biri də Kürd kənd tam orta məktəbidir. Bu tarixi hadisə nəinki pedaqoji kollektivin və şagirdlərin, bütün kənd camaatının sevincinə səbəb olmuşdur. İstifadəyə verilən 2 mərtəbəli 360 yerlik, yüksək standartlara cavab verən, zəngin maddi-texniki bazaya, müasir istilik sisteminə malik olan məktəbimiz təhsilə olan qayğı və münasibətin bariz nümunəsidir.

2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunması, cümhuriyyətin yaranmasının 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi Azərbaycan tarixinə, onun dövlətçilik ənənələrinə sadiqlik nümunəsidir. Şagirdlərimiz bu səpkidə bir çox rayon tədbirlərində, məktəblərarası idman və bilik yarışlarında, rəsm müsabiqələrində o cümlədən məktəbdaxili tədbirlərdə fəal iştirak etmiş və mükafatlara layiq görülmüşlər. Məktəbimizin ən böyük uğuru bu il ali məktəblərə şagirdlərin qəbul göstəriciləridir. Onu da qeyd edim ki, bu il yaxşı nəticə göstərən şagirdlərimiz məhz ibtidai sinfə bu yeni məktəbdə başlamışlar. Belə ki, sinif rəhbəri olduğum bu ilki 11-ci sinfi bitirən 10 nəfər məzundan 8-i ali məktəblərə, 1 nəfər isə orta ixtisas məktəbinə qəbul olmuşdur. Bu nəticənin əldə olunması əlbəttə, illərin əziyyəti və zəhmətinin nəticəsi idi. Məzunlarımızdan Gülxanım Əsədova 657 balla ATU-nin tibbi profilaktika, Sevinc Baxşıyeva 644 balla ADNSU-nun kimya mühəndisliyi, Aysel Həsənova 597 balla BDU-nun kimya, Aytac Aslanova 559 balla BDU-nun coğrafiya fakültəsinə, digər şagirdlərimiz də respublikanın bir sıra nüfuzlu ali məktəblərinə qəbul olmuşlar.

Biz müəllim kollektivi bu nəticələrlə, öz işimizlə dövlətə, dövlət başçısına sadiqliyimizi bir daha sübut edirik. Bu nəticələrlə əlbəttə kifayətlənmirik. Qarşıda böyük hədəflərimiz var. Məqsədimiz məktəbi bitirən şagirdlərimizin hər birinin ali məktəblərə qəbul olmasıdır.

Dövlətin qayğısı, rayon rəhbərliyinin və RTŞ-nin diqqətinə cavab olaraq pedaqoji kollektivimiz daha böyük əzmlə çalışacaq və daha yüksək nəticələr əldə edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## *Diana Mirzəyeva, Dizaxlı kənd tam orta məktəbin məzunu*

Uşaqlıqda arzum böyüdükdə həkimlik sənətinə yiyələnmək olub. Dövlətimizin təhsilə olan qayğısı, biz gənclərə yaradılan şərait məni dərslərimi yaxşı oxumağa sövq edib. Odur ki, qəbul imtahanında 690 bal toplayaraq istədiyim ixtisasa yiyələnmək şansını əldə etmişəm. Əlbəttə, bu böyük uğur üçün üzərimdə əziyyəti olan ailəmə, bütün müəllimlərimə həm Dizaxlı kənd tam orta məktəbin müəllimlərinə, həmdə hazırlaşdığım "Express" təhsil mərkəzinin müəllimlərinə borcluyam.



Böyük zirvələri fəth etmək üçün kiçiklərə doğru yol göstərən, öz biliklərini və bildiklərini yorulmadan gələcək nəsillərə ötürən, müqəddəs sənəd sahibləri olan müəllimlərimizi qarşıdan gələn yeni dərs ili münasibətilə təbrik edir, onlara bu çətin və şərəfli işdə uğurlar arzulayıram.

**Diqqətinizə görə təşəkkür edirəm.**

## *Gülnar Məcidova, Laza kənd ümumi orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi*

**Hörmətli tədbir iştirakçıları!**

İlk öncə hər birinizi salamlayıram. Mən 2012-ci ildə müəllimlərin işə qəbulu imtahanından uğurla keçərək Qəbələ rayon Laza kənd ümumi orta məktəbinə Azərbaycan dili və ədəbiyyatı müəllimi təyin olunmuşam. Həmin vaxtdan çalışmışam ki, şagirdlərimiz dərin və keyfiyyətli biliklərə yiyələnsin, məktəbimizin adı ucalsın. Sonraki illər ərzində də ardıcıl



olaraq müəllimlərin işə qəbulu imtahanından uğurlu nəticələr əldə edən gənc müəllimlər məktəbimizdə fəaliyyətə başlayıblar. Bu da şagirdlərimizin bilik səviyyəsinin yüksəlməsinə və bütün fənlərdən daha yüksək nəticələr göstərməsinə səbəb olmuş, nəticədə onlar müxtəlif sahələr üzrə kolleclərə, bir şagirdimiz isə Azərbaycan Texniki Universitetinə qəbul olunmuşdur. Bu cür nəticələr Laza kimi ucqar dağ kəndi üçün yüksək naliyyətdir.

2017-2018-ci tədris ilində şagirdlərimiz fənn olimpiadalarında iştirak etmiş və yüksək nəticələr göstərərək ön sıralarda yer almışlar. Dərs ilinin yekununda onlar buraxılış imtahanlarından uğurla keçmişlər.

Ölkə başçısının imzaladığı sərəncamla Lazada 80 yerlik modul tipli məktəbin tikilməsi xəbəri bizi çox sevindirdi. Qısa müddət ərzində Təhsil Nazirliyinin xətti ilə məktəbin tikintisinə başlanıldı. İnşaat işləri daima rayon icra hakimiyyətinin, təhsil şöbəsinin diqqət mərkəzində olmuşdur. Biz sevinirik ki, yeni tədris ilini yeni məktəbdə başlayacağıq. Məktəbimizə bu diqqəti və qayğını göstərdiyi üçün ölkə başçısına dərin minnətdarlığımızı bildiririk.

Çalşacağıq ki, uğurlarımız hər il daha da çoxalsın, məktəbimizin adı daha da ucalaraq qabaqcıl məktəblərin sırasında olsun. Mənim üçün müəllimlik peşələrin ən şərəflisi, ən qürurlusudur. Müəllim cəmiyyətin gələcəyini quran memardır. Mən də bir Azərbaycan vətəndaşı kimi xalqımızın gələcəyi naminə müəllim adını öz həqiqi mənasında doğrultmaq üçün bütün qüvvəmlə çalışacağam.

Diqqətinizə görə minnətdaram.

## *Telman Abduxalıqov, Tüntül kənd tam orta məktəbin direktoru*

**Hörmətli konfrans iştirakçıları!**

Azərbaycan dövlətinin apardığı sosial -iqtisadi siyasət nəticəsində ölkədə bütün sahələr üzrə, o cümlədən təhsilin inkişafı üzrə mühüm nailiyyətlər əldə olunmuşdür. Təhsilin inkişafı üzrə Dövlət strategiyasının tələblərinə uyğun olaraq ümumtəhsil məktəbləri qarşısında artıq icrasına başlanmış mühüm vəzifələr durur. Məruzədə qeyd olunduğu kumi 2017-2018-ci tədris ili "Təhsildə keyfiyyət ili " elan olunmuşdu. Biz də Tüntül kənd tam orta məktəbində Təhsil Nazirliyinin 2017-ci il 261 saylı əmrini əldə rəhbər tutaraq məktəbin tədbirlər planını hazırladıq. Bu istiqamətdə həyata keçirtməyə çalışdığımız məsələlərdən biri məktəblər arası pedaqoji əməkdaşlıq işi oldu.

Əməkdaşlıq sözü pedaqogikada ötən əsrin 80-ci illərində işlədilmişdir. Əməkdaşlıq humanist ideya olaraq qarşılıqlı anlaşma, tərəflərin fəaliyyətinin birgəliyini nəzərdə tutur və onun hazırda 3 əsas

1) Müəllim-şagird əməkdaşlığı, 2) Müəllim-müəllim əməkdaşlığı, 3) Təlim-tərbiyə müəssisələri arasındakı pedaqoji əməkdaşlıq - kimi istiqamətləri vardır.

Əməkdaşlıq müəllimlərin ideya siyasi, nəzəri və metodik hazırlıq səviyyəsinin yüksəldilməsində ona kömək etməli, o yaradıcı olmalıdır. Mən bu gün sizə məktəbdaxili əməkdaşlıqdan yox məktəblərarası əməkdaşlıqdan danışmaq istərdim. Yeri gəlmişkən qeyd edim ki məktəbdaxili əməkdaşlıq yoxdursa və ya zəifdirsə müəssisələrarası pedaqoji əməkdaşlıq yaradıcı və işgüzar olmayacaq. Lakin təcrübə göstərir ki, müəllimlərin məktəblərarası əməkdaşlığa daha çox marağı vardır. Bu gün demək olmaz ki, əvvəlki illərdə müəssisələrarası əməkdaşlıq olmayıb,



olub, lakin bundan planlı şəkildə , canlı dialoq və müzakirələrlə yekunlaşan , nəticələrinin tətbiq olunduğu səviyyə əldə olunmayıb.

Təhsil Nazirliyinin 05 yanvar 2018-ci il tarixli 21 nömrəli "Pedaqoji əməkdaşlıq əlaqələrinin yaradılması " barədə əmrinə əsasən təhsil müəssisələri arasında əlaqələrin yaradılması praktik olaraq yerinə yetirilməyə başlandı və rəhbərlik etdiyim məktəb ilk belə məktəblərdən oldu.

Belə ki, həmin əməkdaşlıq çərçivəsində Oğuz rayonunun Qumlaq kənd tam orta məktəbi ilə pedaqoji əməkdaşlığa başladıq və ilk öncə məktəbin tarixi və məzunlarının nailiyyətləri haqqında məlumat topladıq. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı məktəbimizdə rayonumuzun beş məktəbinin və qonşu Oğuz rayonun Qumlaq kənd tam orta məktəbinin şahmatçılarının qatıldığı yarış təşkil olundu. Dost Qumlaq məktəbinin rəhbərliyi, iştirakçı müəllimlər, məktəbimizin illik, cari iş planları, məktəbin nizamnaməsi, pedaqoji şuranın iş planı , hətta sinif rəhbərləri, dərnək rəhbərlərinin iş planları ilə tanış oldular. Oxşar və fərqli cəhətlər qeyd olunmaqla maraqlı müzakirələr aparıldı. Bu məktəbimizin tarixində dost məktəblə ili qarşılıqlı müzakirə idi.

Aprel ayında mənim rəhbərliyimlə məktəbimizin müəllimləri və 2 nəfər X sinif şagirdi Qumlaq kənd tam orta məktəbində olduq. Həmin məktəb 2012-ci ildə tikilərək istifadəyə verilib. Təmiz və yaraşıqlıdır. Biz orada III sinifdə riyaziyyat, VII sinifdə coğrafiya və V sinifdə tarix dərslərində olduq. Kimya gecəsində iştirak etdik, müzakirələr səmərəli, qarşılıqlı dinləmələr oldu.

Orada müşahidə etdiyim vacib məsələlərdən biri səhər dərs başlamazdan 10 dəqiqə əvvəl Dövlət Himninin oxunması və sonra dərslərin başlanması oldu. Bu bütün tərəfləri ilə çox faydalı tədbirdir, və sonda mən respublikada yenicə start verilmiş pedaqoji əməkdaşlığı dəstəkləyirəm və məktəbləri işə və yaradıcı fəaliyyətə aparan bu prosesə fəal qoşulmağa çağırıram.